

# Akademik
# Mehdi Mehdizadə
# 100

Hörmətli ______________________

Azərbaycan Respublikasının Təhsil Nazirliyi Sizi Əməkdar Elm xadimi, görkəmli maarif qurucusu, ictimai xadim, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor Mehdi Mehdizadənin anadan olmasının 100 illiyinə həsr edilmiş yubiley tədbirinə dəvət edir.

Yubiley tədbiri 2003-cü il dekabr ayının 13-də saat $11^{00}$ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin böyük zalında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 34

*Təşkilat komitəsi*

**Giriş sözü: Misir Mərdanov,** Azərbaycan Respublikasının Təhsil Naziri, Əməkdar elm xadimi, professor.

Akademik M.M.Mehdizadənin həyatı, elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında.

**Məruzəçi: Əjdər Ağayev,** pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim, Respublika Təhsil Şurasının sədri.

**Çıxışlar:**

## Mehdi
## Məmməd oğlu Mehdizadə

1903-cü il, yanvar ayının 5-də Azərbaycanın Cəbrayıl qəzasının Daşkəsən kəndində anadan olmuşdur. 1919-cu ildə kənd məktəbində ibtidai təhsilini tamamlamış, 1920-ci ildə qiraət komasında əmək fəaliyyətinə başlamışdır. 1921-ci ildə Cəbrayıldakı pedaqoji kursu bitirərək, məzunu olduğu kənd məktəbində işləməyə başlamışdır. 1923-cü ildə Bakı şəhərində ali pedaqoji kursu bitirmiş, elə həmin il Azərbaycan Dövlət Pedaqoji İnstitutunun hazırlıq kursuna, bir il sonra isə fizika-riyaziyyat fakültəsinə qəbul olmuş, 1926-cı ildə ali təhsilli müəllim kimi Cəbrayıl qəzasının Qaryagin (indiki Füzuli) şəhərində ikinci dərəcəli məktəbdə işləmişdir. 1930-cu ilin martında Xalq Maarif Komissarlığının İctimai Tərbiyə Baş İdarəsinin elmi katibi

və Xalq Maarif Komissarının birinci müavini Ayna Sultanovanın köməkçisi təyin edilmişdir. 1931-ci ildən Elmi-Tədqiqat Pedaqogika İnstitutunun aspiranturasında təhsilini davam etdirməklə, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda fəaliyyətə başlamışdır. O, burada assistentlikdən institutun rektoru vəzifəsinədək yüksəlmiş, səmərəli işlər görmüşdür. Namizədlik və doktorluq dissertasiyaları müdafiə edərək, pedaqoji elmlər namizədi (1941), pedaqoji elmlər doktoru (1956) elmi dərəcələrini, professor (1957) elmi adını almışdır.

M.Mehdizadə 60 ildən çox bir müddətdə Azərbaycan xalqına, onun maarifinə, elminə ləyaqətlə xidmət etmiş, böyük fədakarlıq nümunəsi göstərmişdir. O, sözün həqiqi mənasında keçən əsrin böyük maarif korifeyi, maarif qurucusu kimi tanınmışdır.

M.Mehdizadə 23 il Respublikanın Maarif Naziri vəzifəsində (1952-1954; 1960-1980) işləmiş, təhsil quruculuğu işinə gərgin əmək sərf etmişdir. O, keçmiş SSRİ məkanında da şəxsi nümunəsi, elmi mövqeyi, təşkilatçılıq qabiliyyəti ilə həmkarları arasında böyük nüfuz qazanmış, əsil ağsaqqal kimi tanınmışdır. Təsadüfü deyildir ki, M.Mehdizadə SSRİ Pedaqoji Elmlər Akademiyasının təşkilatçılarından biri olmuş, akademiyanın fəaliyyətə başladığı andan-1967-ci ildən 1984-cü ilə-ömrünün sonunadək onun ən nüfuzlu, sayılıb-seçilən üzvlərindən biri olmuşdur.

Akademik M.Mehdizadə dünyada ən nüfuzlu təşkilat olan YUNESKO-nun təhsil üzrə komitələrindən birinin üzvü olmuşdur (1961-1964). O, YUNESKO xətti ilə inkişafda olan ölkələrdə xalq maarifi quruculuğu təcrübəsinin yayılmasında fəal iştirak etmişdir.

Akademik M.Mehdizadə eyni zamanda Rusiya, Belarusiya, Ukrayna, Qazaxstan, Özbəkistan, Türkmənistan, Gürcüstan, Moldova və digər respublikalarda da yüksək nüfuz qazanmış, görkəmli pedaqoq alim, təhsil təşkilatçısı kimi tanınmışdır.

M.Mehdizadə 1930-cu ildən ömrünün sonuna qədər ardıcıl elmi-pedaqoji tədqiqatlar aparmış, pedaqoji fikrin və təhsilin inkişaf tarixi, təlim-tərbiyə nəzəriyyəsinin aktual problemləri üzrə fundamental əsərlərin müəllifi kimi tanınmışdır.

«Azərbaycanda Sovet məktəbinin tarixi haqqında oçerklər», «Azərbaycanda xalq maarifinin sürətli inkişafı», «Azərbaycanda məktəb təhsili yeni yüksəlişdə», «Məktəbdə təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları» və s. əsərlər Azərbaycan və rus dillərində nəşr olunmuşdur.

M.Mehdizadə yüzdən çox monoqrafiya, kitabça və jurnal məqalələrinin müəllifidir. Onun tədqiqatının nəticələri 50 ildən çoxdur ki, ali məktəb tələbələri, müəllimlər, tərbiyəçilər, alimlər tərəfindən öyrənilir, praktik fəaliyyətə tətbiq olunur. M.Mehdizadə onlarla yüksək ixtisaslı alimin yetişdirilməsində bilavasitə iştirak etmişdir.

1980-ci ildə təqaüdə çıxması ilə əlaqədar Respublikanın Maarif Naziri vəzifəsindən azad edildikdən sonra Elmi-

Tədqiqat Pedaqoji Elmlər İnstitutunda ictimai əsaslarla elmi məsləhətçi кimi fəaliyyət göstərmiş, gənc elmi-pedaqoji кadrların hazırlanmasına, mühüm əhəmiyyət кəsb edən problem məsələlərin tədqiqinə gərgin əməк sərf etmişdir.

Görкəmli pedaqoq alim, maarif qurucusu, ictimai xadim, aкademiк Mehdi Mehdizadənin əməyi yüкsəк qiymətləndirilmişdir. O, Azərbaycan Respubliкasının Əməкdar Elm xadimi fəxri adına layiq görülmüş, 5 dəfə (IV, V, VI, VII, VIII çağrışlar) Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. O, Lenin ordeni, 3 dəfə Qırmızı Əməк Bayrağı ordeni, 4 dəfə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı və medallarla, o cümlədən N.K.Krupsкaya adına medalla təltif olunmuşdur.

Vətəninə, xalqına, hərarətli qəlblə bağlı olan aкademiк M.Mehdizadə I984-cü ildə may ayının 1-də dünyasını dəyişmiş, Fəxri Xiyabanda dəfn edılmişdir.